AZERBAIJAN NATIONAL LIBRARY

CUMHURBAŞKANLIĞI
MİLLET KÜTÜPHANESİ

**Azərbaycan Milli Kitabxanası**

**Türkiyə Millət Kitabxanası**

# Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası və Türkiyə Respublikası Cümhurbaşqanlığı Millət Kitabxanası arasında Əməkdaşlıq Protokolu

## GİRİŞ

Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası və Türkiyə Respublikası Cümhurbaşqanlığı Millət Kitabxanası (bundan sonra birlikdə "İştirakçılar" və ya bir tərəf üçün "İştirakçı" adlandırılacaq).

Təhsilin, elmin və mədəniyyətin inkişafında informasiya-kitabxana fəaliyyətinin mühüm rolunu nəzərə alaraq,
Kitabxanaçılıq sahəsinin inkişafı üçün qarşılıqlı əməkdaşlığın vacibliyini nəzərə alaraq, aşağıdakı məsələlərdə razılığa gəldilər.

**Məqsəd və əhatə dairəsi**

MADDƏ 1 - Bu Protokolun məqsədi və əhatə dairəsi;

(1) Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası ilə Türkiyə Respublikası Cümhurbaşqanlığı Millət Kitabxanası arasında əməkdaşlıq sistemi yaradılsın.

(2) Bu Protokol hər bir təşkilatın rolunu və ümumi məqsədlərinə nail olmaq üçün necə birgə işləyəcəklərini müəyyən edir.

## ƏMƏKDAŞLIQ ÜÇÜN MÖVZULAR

MADDƏ 2- (1) İştirakçılar öz ölkələrində qüvvədə olan milli qanunvericilik və dövlətlərinin qoşulduğu beynəlxalq müqavilələr və bu Protokolun müddəaları çərçivəsində bilik və təcrübə mübadiləsi yolu ilə kitabxana fəaliyyəti sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

(2) Tərəflər bilik və təcrübə mübadiləsi yolu ilə kitabxana fəaliyyətində əməkdaşlığı gücləndirmək və daha da inkişaf etdirmək məqsədilə aşağıdakı əsas istiqamətlər üzrə qarşılıqlı fəaliyyət göstərəcəklər:

(a) İştirakçılar tarix və mədəni irsə aid mövzularda çap materialları və dövri nəşrlərin mübadiləsini təşviq edəcəklər.

(b) İştirakçılar öz qanunvericiliklərinə uyğun olaraq sənəd kolleksiyalarını

zənginləşdirmək və çatışmayan hissələri tamamlamaq üçün mikrofilmlərin, rəqəmsal nüsxələrin, rəqəmsal məzmunun və digər əlaqəli nadir əsərlərin və əlyazmaların mübadiləsini təşviq edəcəklər.

(c) İştirakçılar yazılı irs, nəşriyyat və kitabxanaşünaslıq sahələrində birgə elmi tədqiqat və təbliğat fəaliyyətini dəstəkləyəcək və bu tədqiqatların nəticəsi olan birgə nəşrlərin hazırlanmasını əlaqələndirəcəklər.

(d) İştirakçılar əlyazma və sənədlərin mühafizəsi, bərpa texnologiyaları və rəqəmsallaşdırma sahələrində qarşılıqlı əməkdaşlığı dəstəkləyəcəklər.

(e) İştirakçılar bir-birlərinin mədəni tədbirlərində, kurslarında, konfranslarında, bələdçi səfərlərində və sərgilərində əməkdaşlıq etmək imkanını dəstəkləyəcəklər.

(f) İştirakçılar təhsil, texnologiyadan istifadə, kitabxana idarəçiliyi, kitabxanaçılıq sahəsində peşəkar biliklər və tətbiq sahələri (kataloqlaşdırma, təsnifat, rəqəmsallaşdırma və s.) kimi mövzular üzərində birgə işləyəcəklər.

(g) İştirakçılar kitabxanaçılar üçün təlim proqramlarının hazırlanmasında, birgə təcrübə fəaliyyətlərində və ekspertlərin mübadiləsində qarşılıqlı əməkdaşlığı dəstəkləyəcəklər.

(3) Bu Protokolun müddəalarını həyata keçirmək üçün İştirakçılar qarşılıqlı razılıq əsasında üç illik əməkdaşlıq proqramları hazırlayacaqlar.

## İŞTİRAKÇILARININ ÖHDƏLİKLƏRİ

MADDƏ 3- (1) Bu Protokolun icrasının əlaqələndirilməsi Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası və Türkiyə Millət Kitabxanası tərəfindən təmin edilsin.

(2) Bu Protokol beynəlxalq hüquqa əsasən beynəlxalq müqavilə təşkil etmir və tərəflərə heç bir maliyyə və ya hüquqi öhdəlik qoymur.

(3) Bu Protokolda nəzərdə tutulmuş əməkdaşlıq baş vermədikdə, heç bir iştirakçı digər tərəf qarşısında məsuliyyət daşımır.

(4) Bu Protokol çərçivəsində həyata keçiriləcək bütün əməkdaşlıq fəaliyyətləri İştirakçıların ölkələrində qüvvədə olan qanunvericiliyə uyğun olaraq həyata keçiriləcəkdir.

## ƏQLİ MÜLKİYYƏT

MADDƏ 4- (1) İştirakçılar bu Protokol çərçivəsində istifadə ediləcək, təhvil veriləcək, işlənib hazırlanacaq və ya yaradılacaq əqli mülkiyyət hüquqlarının

müvafiq milli qanunvericiliyə və Türkiyə Respublikasının və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq səmərəli müdafiəsini təmin edəcəklər. Bu Protokolun məqsədləri üçün əqli mülkiyyət 14 iyul 1967-ci ildə Stokholmda imzalanmış və 28 sentyabr 1979-cu ildə düzəlişlər edilmiş Ümumdünya Əqli Mülkiyyət Təşkilatının yaradılması haqqında Sazişin 2-ci maddəsində verilmiş məna daşıyır.

**MALİYYƏ MƏSƏLƏLƏRİ**

MADDƏ 5 (1) İştirakçılar bu Protokolda müəyyən edilmiş əməkdaşlıq məsələləri üzrə öz milli qanunvericiliklərinə uyğun olaraq ayrılmış maliyyə vəsaitləri ilə məhdudlaşaraq əməkdaşlıq edəcəklər.

(2) Əməkdaşlıq məqsədləri üçün personalın təyinatları üçün nəqliyyat, yemək və yaşayış xərcləri göndərən tərəf tərəfindən ödəniləcəkdir.

MÜBAHİSƏLƏRİN HƏLLİ

Maddə 7 - (1) Bu Protokolun müddəalarının təfsiri və ya tətbiqi ilə bağlı yaranan mübahisələr İştirakçılar tərəfindən danışıqlar və məsləhətləşmələr yolu ilə sülh yolu ilə həll edilir.

**QÜVVƏYƏ MİNMƏ TARİXİ, ETİBARLILIQ MÜDDƏTİ, DƏYİŞİKLİKLƏR VƏ XİTAM**

MADDƏ 7- (1) Protokolun qüvvədə olma müddəti 5 (beş) ildir və Protokol imzalandığı tarixdən qüvvəyə minir.

(2) İştirakçılardan biri bu Protokolun qüvvədə olma müddətinin bitməsinə ən azı üç ay qalmış digər tərəfi yazılı şəkildə xəbərdar etməzsə, Protokolun qüvvəsi növbəti beş il müddətinə uzadılmış hesab ediləcək.

(4) İştirakçıların qarşılıqlı yazılı razılığı ilə bu Protokol istənilən vaxt dəyişdirilə bilər. Dəyişikliklər bu maddədə müəyyən edilmiş qaydada qüvvəyə minir. İştirakçılardan biri istənilən vaxt digər İştirakçıya yazılı bildiriş verməklə bu Protokolu ləğv edə bilər. Protokol belə bildirişin verildiyi tarixdən üç ay sonra qüvvədən düşmüş hesab edilir. İştirakçılar başqa cür qərar vermədikcə, Protokolun ləğvi davam edən layihələrə təsir göstərməyəcək.

AZERBAIJAN NATIONAL LIBRARY

CUMHURBAŞKANLIĞI MİLLET KÜTÜPHANESİ

**BİLDİRİŞ ÜNVANI**

MADDƏ 8- (1) Protokola uyğun olaraq ediləcək bütün bildirişlər aşağıda göstərilən ünvanlara göndəriləcək.

**Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası üçün:**
Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası, Azərbaycan Respublikası, AZ1000, Bakı şəhəri, Həqani küçəsi, 57 nömrəli ünvan

**Türkiyə Respublikası Cümhurbaşqanlığı Millət Kitabxanası üçün:**
Türkiyə Millət Kitabxanası, Prezidentlik Külliyyəsi, 06560, Beştəpə, Yenimahalle – Ankara / TÜRKİYƏ

**QURUMLAR ARASI ÜNSİYYƏT ÜÇÜN ƏLAQƏ MƏLUMATLARI**

MADDƏ 9 - (1) Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının və Türkiyə Millət Kitabxanasının kitabxana xidmətləri və internet xidməti ilə bağlı texniki və qanunvericilik baxımından zəruri hesab edilən hallarda əlaqə saxlanılacaq əməkdaşların əlaqə məlumatları ƏLAVƏ-1-də verilmişdir.

(2) Əlaqə veriləcək şəxsi heyətdə və ya əlaqə məlumatlarında hər hansı dəyişiklik olarsa, iştirakçılar bu dəyişiklik barədə ən qısa zamanda rəsmi məktubla və ya Əlavə-1-də Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının və Türkiyə Millət Kitabxanasının blanklarında göstərilən korporativ elektron poçt ünvanı vasitəsilə qarşı tərəfə məlumat verəcəklər.

**İMZA**

MADDƏ -10 - (1) Bu Protokol Azərbaycan dili və türk dillərində hazırlanmış mətnlər eyni dərəcədə qüvvədə olmaqla 2 (iki) əsl nüsxədə hazırlanmışdır və hər biri bir nüsxə Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasına və Prezidentin Dəstək və Maliyyə Xidmətləri Baş İdarəsinin Kitabxanalar şöbəsinə təqdim edilmişdir. Bu Protokolun hər bir nüsxəsi əslidir və aşağıda adı çəkilən tərəflər tərəfindən 2 Oktyabr 2025-ci ildə Bakıda imzalanmışdır.

**Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası adından**
**Professor KƏRİM TAHİROV**

**Prezidentin Baş Katibliyi Dəstək və Maliyyə Xidmətlər Baş İdarəsi Kitabxanalar Şöbəsi adından**
**AYHAN TUĞLU**

AZERBAIJAN NATIONAL LIBRARY

CUMHURBAŞKANLIĞI
MİLLET KÜTÜPHANESİ

# ƏLAVƏ – 1
## Əlaqə Yaradılacaq Kadrlar haqqında Məlumatlar
## Türkiyə Milli Kitabxanasının Əlaqə Yaradılacaq Kadrlar haqqında Məlumatları

-Kitabxana xidmətləri haqqında məlumat üçün

| Adı soyadı | Vəzifəsi | E-poçt ünvanı | Telefon |
|---|---|---|---|
| Birgül ÜNAL | Şöbə müdiri | birgul.unal@tccb.gov.tr | +903125257474 |

Texniki məsələlər haqqında ətraflı məlumat üçün

| Adı soyadı | Vəzifəsi | E-poçt ünvanı | Telefon |
|---|---|---|---|
| Lütfü KILINÇ | Şöbə müdiri | lutfu.kilinc@tccb.gov.tr | +903125257400 |
| | | | |

Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının Əlaqə Yaradılacaq Kadrlar haqqında Məlumatları

Kitabxana xidmətləri haqqında məlumat üçün

| Adı soyadı | Vəzifəsi | E-poçt ünvanı | Telefon |
|---|---|---|---|
| Ədibə İsmayılova | Direktor müavini | contact@anl.az<br>oxucu_xidmet@anl.az | +994 50 376 49 86 |

Texniki məsələlər haqqında ətraflı məlumat üçün

| Adı soyadı | Vəzifəsi | E-poçt ünvanı | Telefon |
|---|---|---|---|
| Toğrul Kamilzadə | Direktor müavini | contact@anl.az<br>togrul@anl.az | +994 50 636 08 56 |